# Sovxoz və kolxozların islahatı haqqında

## AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun sovxozların, kolxozların, təsərrüfatlararası və digər-kənd təsərrüfatı istehsalı müəssisələrinin (bundan sonra sovxoz və kolxozların) istifadəsindəki (balansındakı) torpaqdan və əmlakdan pay almaq hüququ olan şəxslər tərəfindən təsərrüfatın (müəssisənin) hər hansı təşkilati-hüquqi formasının könüllü seçilməsinə və yaradılmasına təminat verir.

I fəsil

## ÜMUMİ MÜDDƏALAR

Maddə 1. **Sovxoz və kolxozların islahatı haqqında qanunvericilik**

Sovxoz və kolxozların islahatı haqqında qanunvericilik “Aqrar islahatın əsasları haqqında” Azərbaycan Respublikasının Qanunundan, bu Qanundan, Azərbaycan Respublikasının Torpaq Məcəlləsindən, “Sahibkarlıq fəaliyyəti haqqında” və “Müəssisələr haqqında” Azərbaycan Respublikası qanunlarından və digər normativ aktlardan ibarətdir.

Maddə 2. **İslahatın məqsəd və vəzifələri**

İslahatın məqsədi bazar iqtisadiyyatına uyğun müxtəlifnövlü təsərrüfat formalarını yaratmaq və aqrar bölmədə sahibkarlığı inkişaf etdirməkdir.

İslahatın vəzifələri sovxoz və kolxozların kəndli (fermer) təsərrüfatlarına bölünməsindən, birgə sahibkarlığa əsaslanan xüsusi mülkiyyətli kənd-təsərrüfatı müəssisələrinə çevrilməsindən, sovxozların bazasında dövlət kənd təsərrüfatı müəssisələrinin yaradılmasından, şəxsi yardımçı təsərrüfatların inkişafından, yaradılmış təsərrüfatların kooperasiyası və xidmət sahələrinin təşkilindən ibarətdir.

Maddə 3. **İslahatın obyektləri və subyektləri**

İslahatın obyektləri sovxoz və kolxozların istifadəsində (balansında) olan torpaqlar və əmlakdır.

Sovxoz və kolxozların daimi işçiləri və üzvləri, sovxoz və kolxozdan pensiyaya çıxmış şəxslər, müddətli hərbi xidmətə çağırılmış və seçkili dövlət orqanlarının tərkibinə seçilmiş sovxoz və kolxozda işləmiş şəxslər sovxoz və ya kolxozun əmlakından pay almaq hüququ olan subyektlərdir.

Sovxoz və kolxozların əmlakından tələbi olan fiziki və hüquqi şəxslərin, digər subyektlərin dairəsi, hüquq və vəzifələri Azərbaycan , Respublikasının qanunvericiliyinə uyğun tənzimlənir.

Torpaq islahatının aparılması Azərbaycan Respublikasının torpaq qanunvericiliyi ilə tənzimlənir.

Maddə 4. **İslahatı aparan orqanlar**

İslahatın aparılması üçün Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyası, Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyası, rayon və yerli aqrar islahat komissiyaları yaradılır. Komissiyalar islahatın aparılmasına səlahiyyətləri hüdudlarında cavabdehlik daşıyırlar.

Komissiyaların hüquqları və vəzifələri, iş qaydaları müvafiq əsasnamələr ilə müəyyən edilir.

Maddə 5. **Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyası**

Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasının tərkibinə aqrar-sənaye kompleksi idarəçiliyini həyata keçirən mərkəzi dövlət idarəetmə orqanlarının rəhbərləri, Azərbaycan, Respublikası müvafiq icra hakimiyyəti orqanlarının, Mərkəzi Bankın, Dövlət Sığorta Fondunun, Aqrar-Sənaye Kompleksi İşçiləri həmkarlar İttifaqının Respublika Komitəsinin, elmi idarələrin və ictimaiyyətin nümayəndələri daxil edilir. [1]

Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasını Azərbaycan Respublikası Prezidenti təşkil edir və komissiyanın sədrini təyin edir. Komissiya Azərbaycan Respublikası Prezidentinə hesabat verir.

Komissiya:

aqrar islahatın dövlət proqramını hazırlayır, Azərbaycan Respublikası Prezidentinin təsdiqinə verir və həyata keçirilməsini təşkil edir;

islahat qanunlarının tətbiqi üçün təlimatları, tövsiyələri və digər sənədləri, zəruri materialları hazırlayır, onlara əməl olunmasını təmin edir;

dövlət mülkiyyətində saxlanılan və bələdiyyə mülkiyyətinə verilən obyektlərin siyahısını müəyyənləşdirir və Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

islahatın maliyyə təminatı ilə əlaqədar təkliflər verir, ayrılan vəsaitlərin bölgüsünü aparır və təyinatı üzrə istifadəsini təmin edir;

Naxçıvan Muxtar Respublikasının, rayon və yerli aqrar islahat komissiyalarının əsasnamələrini hazırlayır və təsdiq edir;

islahatla əlaqədar daxil olmuş müraciətlərə baxır və s.

Maddə 6. **Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyası**

Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyası muxtar respublikanın xüsusiyyətləri nəzərə alınmaqla Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyası ilə eyni əsaslarla yaradılır və göstərilən vəzifələri muxtar respublika ərazisində yerinə yetirir.

Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyasını tərkibini və sədrini Azərbaycan Respublikası Dövlət Aqrar İslahat "Komissiyası təsdiq edir.

Maddə 7. **Rayon aqrar islahat komissiyası**

Rayon aqrar islahat komissiyasını rayon (şəhər) icra hakimiyyətinin başçısı təşkil edir. Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyası və ya Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyası rayon aqrar islahat komissiyasının tərkibi barədə sərəncamı təsdiq edir və onun sədrini təyin edir. Komissiya həmin vaxtdan fəaliyyətə başlayır.

Rayon aqrar islahat komissiyası müvafiq surətdə Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasına və ya Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyasına hesabat verir.

Rayon aqrar islahat komissiyasının tərkibinə rayon (şəhər) icra hakimiyyətinin, rayon xalq deputatlar sovetinin, kənd təsərrüfatı idarəsinin, Dövlət Əmlak Komitəsinin, torpaq şöbəsinin, statistika idarəsinin, aqrar-sənaye kompleksi işçiləri həmkarlar ittifaqının rayon komitəsinin, təsərrüfatların, rayon ictimaiyyətinin nümayəndələri daxil edilir.

Komissiya:

rayon aqrar islahat proqramını hazırlayır və Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasının (Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyasının) təsdiqinə təqdim edir;

rayon ərazisində aqrar islahatın aparılmasını təmin edir;

islahatın maliyyə təminatı ilə əlaqədar təkliflərini aidiyyəti üzrə müvafiq orqanlara təqdim edir və ayrılan vəsaitin təyinatı üzrə istifadəsini təmin edir;

bələdiyyə mülkiyyətinə veriləcək torpaq və əmlak haqqında təkliflərini (müvafiq nazirlik və baş idarələrin rəyləri ilə) Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasına və ya Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyasına təqdim edir;

yerli aqrar islahat komissiyalarına səlahiyyətinə aid məsələlər üzrə zəruri normativ sənədləri və təlimatları çatdırır, komissiyaların üzvlərinə məsləhətlər verir;

islahatla əlaqədar daxil olmuş müraciətlərə baxır və s.

Maddə 8. **Yerli aqrar islahat komissiyası**

Yerli aqrar islahat komissiyası sovxozun və kolxozun ümumi yığıncağı tərəfindən təşkil edilir və onun tərkibi rayon aqrar islahat komissiyası tərəfindən təsdiq edilir. Komissiya islahatın gedişi haqqında rayon aqrar islahat komissiyasına hesabat verir.

Komissiyanın tərkibinə təsərrüfatın rəhbəri, əmək kollektivinin, icra hakimiyyətinin, təsərrüfatın ərazisində yaşayan vətəndaşların nümayəndələri daxil edilir.

Komissiya:

aqrar islahat haqqında izahat işi aparır;

əmək kollektivi və ərazidə yaşayan vətəndaşların rəyi nəzərə alınmaqla torpaq və əmlak bölgüsü, təsərrüfat formalarının seçilməsi və digər mühüm məsələlər haqqında təkliflər hazırlayır, aidiyyəti üzrə təqdim edir, səlahiyyətinə aid məsələlər üzrə qərarlar qəbul edir və icrasını həyata keçirir;

islahatın qanunvericiliyə uyğun həyata keçirilməsini təmin edir; ləğvetmə komissiyasının funksiyalarını yerinə yetirir;

islahatla əlaqədar daxil olmuş müraciətlərə baxır və s.

II fəsil

## ƏMLAK MƏSƏLƏLƏRİ VƏ ƏMLAKIN ÖZƏLLƏŞDİRİLMƏSİ

Maddə 9. **Sovxozların və digər dövlət kənd təsərrüfatı istehsalı müəssisələrinin əmlakının özəlləşdirilməsinin ümumi qaydaları**

Dövlət kənd təsərrüfatı istehsalı müəssisələri əmlakı özəlləşdirilən və əmlakı dövlət mülkiyyətində saxlanılan müəssisələrə bölünür.

Toxumçuluq, cins mal-qara və damazlıq təsərrüfatları, atçılıq zavodları, elmi-tədqiqat və tədris müəssisələrinin ,təcrübə bazaları, vəhşi heyvandarlıq sovxozları və dövlət əhəmiyyətli digər müəssisələrin yalnız əsas istehsal məqsədlərini təmin etmək üçün tələb olunan əmlakı dövlət mülkiyyətində saxlanılır, qalan əmlak özəlləşdirilir.

Əmlakın xüsusi mülkiyyətə verilməsi üçün fərdi əmlak payları . müəyyənləşdirilir.

Pay almaq hüququ olan şəxslərin qərarı ilə əmlak payı naturada fərdi və ya birgə sahibkarlığa əsaslanan xüsusi mülkiyyətə verilir.

Əmlak payının naturada verilməsi mümkün olmadıqda onun dəyəri ödənilir.

Maddə 10. **Sosial infrastruktur obyektləri üzərində mülkiyyət münasibətləri**

Sovxoz və kolxozların balansında olan sosial infrastruktur obyektləri üzərində mülkiyyət münasibətləri "Aqrar islahatın əsasları haqqında" Azərbaycan Respublikası Qanununun 8-ci maddəsinə əsa tənzimlənir.

Maddə 11. **Sovxozlarda və digər dövlət kənd təsərrüfatı istehsalı müəssisələrində əmlak payının müəyyənləşdirilməsi**

Sovxozlarda və digər dövlət kənd təsərrüfatı istehsalı müəssisələrində əmlak payı aşağıdakı qaydada Müəyyənləşdirilir:

əmlak inventarlaşdırılır və qiymətləndirilir;

müəssisənin debitor və kreditorlarla haqq-hesabı aparılır və əmək haqqı üzrə borclar. ödənilir;

əmlakdan pay almaq hüququ olan şəxslərin siyahısı müəyyənləşdirilir;

müəssisənin əmlakında bölünməyən və bölünən hissələr müəyyənləşdirilir. Ümumi istifadəsi zəruri hesab edilən əmlak bölünməyən, yerdə qalan əmlak bölünən əmlaka aiddir;

əmlak payları əmək fəaliyyəti nəzərə alınmaqla müəyyənləşdirilir və mülkiyyətçilərə verilir.

Əmlakın bölünməsi, satılması və bələdiyyə mülkiyyətinə verilməsi qaydalarını Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyası hazırlayır və Azərbaycan Respublikası Prezidenti təsdiq edir.

Maddə 12. **Kolxozların əmlakının bölüşdürülməsi**

Kolxozların əmlakının bölüşdürülməsi kollektivin ümumi yığıncağının qərarı əsasında aparılır.

Bölgü əmlakın bölünməsi, satılması və bələdiyyə mülkiyyətinə verilməsi qaydalarından istifadə olunmaqla həyata keçirilir.

III fəsil

## TƏSƏRRÜFATINDA MÜXTƏLİFNÖVLÜ MÜƏSSİSƏLƏRİN YARADILMASI

Maddə 13. **Müxtəlifnövlü müəssisələrin təşkilati-hüquqi formaları**

Kənd təsərrüfatında müxtəlifnövlü müəssisələrin aşağıdakı təşkilati-hüquqi formaları nəzərdə tutulur:

dövlət müəssisəsi formasında fəaliyyət göstərən dövlət kənd təsərrüfatı istehsalı müəssisələri;

məhdud məsuliyyətli müəssisə formasında fəaliyyət göstərən birgə təsərrüfatlar, kooperativlər və təsərrüfatlararası müəssisələr;

səhmdar cəmiyyətləri;

fərdi müəssisə formasında fəaliyyət göstərən kəndli (fermer) təsərrüfatları;

şərikli, payçı və şərikli müəssisə formasında fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri;

müəssisələr birliyi formasında fəaliyyət göstərən birliklər, assosiasiyalar və digərləri.

Maddə 14. **Dövlət kənd təsərrüfatı istehsalı müəssisələri**

Dövlət kənd təsərrüfatı istehsalı müəssisələri sovxozların dövlət mülkiyyətində qalan hissəsi əsasında yaradılır.

Dövlət kənd təsərrüfatı istehsalı müəssisələrinin maddi-texniki təchizatına, maliyyə-kredit resurslarına tələbatının ödənilməsinə, sosial inkişaf məsələlərinin həllinə dövlət himayəçilik göstərir. Dövlət həmin müəssisələrə yalnız onların əsas istehsal istiqamətinə aid məhsullara sifariş müəyyən edir. Qalan məhsullara müəssisə sərbəst sərəncam verir.

Belə müəssisələr tam təsərrüfat hesabı əsasında işləyir və istehsal-təsərrüfat fəaliyyətini sərbəst həyata keçirirlər.

Maddə 15. **Birgə təsərrüfatların yaradılması**

Birgə təsərrüfatlar əsasən sovxoz və kolxozların torpağının və əmlakının özəlləşdirilməsi (bölüşdürülməsi) və birgə sahibkarlığa əsaslanan xüsusi mülkiyyətə verilməsi nəticəsində yaradılır.

Birgə təsərrüfatdan payını almaq istəyən şəxs payını naturada ala bilər, bu mümkün olmadıqda payın dəyəri ödənilir.

Bu təsərrüfatlar fəaliyyətini tam sərbəst qurur və istehsal etdikləri məhsullara sərəncam verirlər. Onların fəaliyyətinə dövlət orqanları yalnız qanunvericilikdə nəzərdə tutulmuş hallarda müdaxilə edə bilərlər.

Maddə 16. **Sovxoz və kolxozların istehsal kooperativlərinə çevrilməsi**

Sovxoz və kolxozlar bütövlükdə və ya bölünərək kooperativlərə çevrilə bilərlər. Mülkiyyətçilər kooperativin təsisçisi olurlar.

Kooperativlərin yaradılması və fəaliyyəti Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.

Maddə 17. **Sovxoz və kolxozların səhmdar cəmiyyətlərinə çevrilməsi**

Sovxoz və kolxozların bütövlükdə və ya bölünərək kooperativlərə

çevrilməsi mümkün (və ya məqsədəuyğun) olmadıqda onların əmlakı səhmləşdirilir və səhmdar cəmiyyəti yaradılır. Qanunvericilikdə nəzərdə tutulan digər hallarda da səhmdar cəmiyyətləri yaradıla bilər.

Müəssisənin və ya onun bir hissəsinin səhmdar cəmiyyətinə çevrilməsi əmək kollektivinin qərarı ilə həyata keçirilir.

Cəmiyyətin nizamnamə fondunu təsisçilər paylarına düşən əmlak və torpaq sahələrinin hesabına yaradırlar.

Səhmdar cəmiyyətlərinin yaradılması və fəaliyyəti Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir. [2]

Maddə 18. **Sovxoz və kolxozların əsasında kəndli (fermer) təsərrüfatlarının yaradılması**

Sovxoz və kolxozların əmlakı və torpağı bölündükdə kəndli (fermer) təsərrüfatları yaradıla bilər.

Kəndli (fermer) təsərrüfatlarının yaradılması və fəaliyyəti "Kəndli (fermer) təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Maddə 19. **Şərikli, payçı və şərikli kənd təsərrüfatı istehsalı müəssisələrinin yaradılması**

Sovxoz və kolxozların islahatı nəticəsində xüsusi və qarışıq mülkiyyətə əsaslanan azı iki fiziki və (və ya) hüquqi şəxs tərəfindən təsis edilən şərikli, habelə xüsusi mülkiyyətə əsaslanan azı bir şərik və bir payçı tərəfindən təsis edilən payçı və şərikli müəssisələr yaradıla bilər.

Belə müəssisələrin yaradılması və fəaliyyəti "Müəssisələr haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Maddə 20. **Şəxsi yardımçı təsərrüfatların inkişafı**

Sovxoz və kolxozlardan alınan əmlak və torpaq payı hesabına şəxsi yardımçı və digər təsərrüfatlar inkişaf etdirilə bilər.

Bu təsərrüfat subyektlərinin fəaliyyəti müvafiq qanunvericiliklə tənzimlənir.

Maddə 21. **Xidmət sahələrinin yenidən təşkili**

Sovxoz və kolxozların mülkiyyətində olan maşın-traktor və avtomobil parkları, təmir-texniki emalatxanaları, suvarma şəbəkələri, təmir-tikinti təşkilatları, anbar və yanacaq təsərrüfatları, zoobaytar xidməti obyektləri, dəyirmanlar, emal sexləri və s. əmlakda pay hüququ olanların razılığı ilə birgə sahibkarlığa əsaslanan xüsusi mülkiyyətli xidmət müəssisələrinə çevrilə bilər. Bu müəssisələrdə payı olanlar təsisçilər hesab edilirlər.

həmin müəssisələrin yaradılması və fəaliyyəti müvafiq qanunvericiliklə tənzimlənir.

Maddə 22. **İstehsal və xidmət sahələrinin kooperasiyası və inteqrasiyası**

Dövlət kənd təsərrüfatı istehsalı müəssisələri, birgə təsərrüfatlar, kooperativlər, kəndli (fermer) təsərrüfatları, səhmdar cəmiyyətləri, emal və xidmət müəssisələri, digər kənd təsərrüfatı müəssisələri hər hansı kooperasiya və inteqrasiya əlaqələri yarada bilərlər.

IV fəsil

## İSLAHATIN TƏMİNATI

Maddə 23. **İslahata dövlət himayəsi**

Dövlət islahatın təşkilati məsələlərini maliyyələşdirir, yeni təsərrüfat formalarına kreditlərin verilməsində, vergilərin müəyyən edilməsində, investisiya ayırmalarında güzəştlərin tətbiqini, dövlət borclarının silinməsini, işğaldan azad edilmiş ərazilərdə islahatın məqsədli dövlət proqramı əsasında aparılmasını təmin edir.

Maddə 24. **İslahat dövründə kənd təsərrüfatı istehsalı müəssisələrinin fəaliyyətinin təmin edilməsi**

Sovxoz və kolxozların rəhbərləri, digər vəzifəli şəxsləri və maddi-məsul şəxslər islahat aparılan dövrdə müəssisənin fəaliyyətinə, təsərrüfatın əmlakının salamatlılığına görə müvafiq qaydada məsuliyyət daşıyırlar.

Maddə 25. **İslahatla əlaqədar mübahisələrin həlli**

Fiziki və hüquqi şəxslər yerli aqrar islahat komissiyalarının çıxardığı qərarla razılaşmadıqda 10 gün müddətində rayon aqrar islahat komissiyasına şikayət edə bilərlər.

Rayon aqrar islahat komissiyası 20 gün müddətində həmin müraciətə baxıb qərar çıxarır. Şikayətçi həmin qərarla razılaşmadıqda 10 gün müddətində Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasına və ya Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyasına müraciət edə bilər. Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyası və ya Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyası bir ay müddətində müraciətə baxıb qəti qərar qəbul edir.

Azərbaycan Respublikası Dövlət Aqrar İslahat Komissiyasının və ya Naxçıvan Muxtar Respublikası Aqrar İslahat Komissiyasının qəti qərarından Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada məhkəməyə şikayət edilə bilər.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV.**

Bakı şəhəri, 18 fevral 1995-ci il.
№ 978.

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

1. 30 aprel 2002-ci il tarixli 317-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 1**)
2. 28 sentyabr 2004-cü il tarixli 765-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 12, maddə 973**)
3. 5 mart 2010-cu il tarixli **972-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 17 aprel 2010-cu il, № 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 04, maddə 276)**

## QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

---

[1] 30 aprel 2002-ci il tarixli 317-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003-cü il, № 1, maddə 1**) ilə 5-ci maddənin birinci hissəsində "**İqtisadiyyat Nazirliyinin, Maliyyə Nazirliyinin, Milli Bankın, Dövlət Vergi Müfəttişliyinin, Dövlət Sığorta Fondunun, Dövlət statistika, əmlak və antiinhisar Siyasəti və sahibkarlığa kömək komitələrinin**" sözləri "**müvafiq icra hakimiyyəti orqanlarının, Milli Bankın, Dövlət Sığorta Fondunun**" sözləri ilə əvəz edilmişdir.

5 mart 2010-cu il tarixli **972-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 17 aprel 2010-cu il, № 81, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 04, maddə 276) ilə** 5-ci maddəsinin birinci hissəsində “**Milli Bankın**” sözləri “**Mərkəzi Bankın**” sözləri ilə əvəz edilmişdir.

[2] 28 sentyabr 2004-cü il tarixli 765-IIQD nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004-cü il, № 12, maddə 973**) ilə 7-ci maddənin dördüncü hissəsində "**Səhmdar cəmiyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu**" sözləri "**Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi**" sözləri ilə əvəz edilmişdir.